UOT 32
https://doi.org/10.30546/ifs.2026.2.47.1385

XVI – XVII ƏSRLƏRDƏ SƏFƏVİLƏR DÖVLƏTİNİN DAXİLİ SİYASƏTİNİN QANUNVERİCİLİYƏ TƏSİRİ

Mirafərim Seyidov
h.f.d.,dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti, **Azərbaycan**
e-mail: mn.seyidov63@gmail.com
https://orcid.org/0009-0008-4223-5541

Xülasə. Məqalədə XVI – XVII əsrlərdə Azərbaycan ərazisində mövcud olmuş Səfəvilər dövlətinin daxili siyasətində qanunvericilik məsələlərinin tədqiqinə geniş yer verilir, dünyəvi və dini qanunvericilik məsələləri araşdırılır. Səfəvilər dövlətinin qanunvericilik məsələlərinin tədqiqi dövrün siyasi mənzərəsinin analizi fonunda verilir. Azərbaycan Səfəvilər dövlətinin hüquq sistemi şəriətə əsaslanırdı ki, onun da mənbəyi Qurani-Kərim, sünnə, icma, qiyas və fitva idi. Məqalədə qanunvericiliyin əsas inkişaf istiqamətləri müəyyənləşdirilir. Burada müsəlman hüququ ilə yanaşı, hüququn digər mənbələri – şah və sultanların islama zidd olmayan əmr və fərmanlarının meydana gəlməsi göstərilir. Səfəvi şahlarının verdiyi qanunlardan, fərmanlardan misal gətirilir, dünyəvi qanunvericiliklə dini qanunvericilik arasında sərhədin müəyyən edilməsi, eləcə də qarşılıqlı əlaqəsi və nisbəti tədqiq olunur. Eyni zamanda Səfəvi dövlətində hüquq normalarının nəzəri cəhətdən ümumiləşdirilməsi meyli nəzərə çatdırılır.

Açar sözlər: Müsəlman hüququ, Səfəvilər, qanun, Şah Təhmasib, qanunvericilik, Şah Abbas

THE INFLUENCE OF THE DOMESTIC POLICY OF THE SAFAVID STATE ON LEGISLATION IN THE 16TH–17TH CENTURIES

Miraferim Seyidov

Abstact. The article devotes considerable attention to the study of legislative issues within the domestic policy of the Safavid State, which existed in the territory of Azerbaijan in the 16th–17th centuries, and examines issues of secular and religious legislation. The study of the legislative aspects of the Safavid State is presented against the background of an analysis of the political landscape of the period under consideration.

The legal system of the Azerbaijani Safavid State was based on Sharia, the sources of which were the Holy Qur’an, Sunnah, ijma, qiyas, and fatwa. The article identifies the main directions of the development of legislation. Alongside Muslim law, other sources of law are also examined, including the orders and decrees of shahs and sultans that did not contradict the principles of Islam.

The article provides examples of laws and decrees issued by the Safavid shahs and examines the delimitation of secular and religious legislation, as well as their interrelationship and correlation. At the same time, attention is drawn to the tendency toward the theoretical generalization of legal norms in the Safavid State.

Keywords: Muslim law, the Safavids, law, Shah Tahmasp, legislation, Shah Abbas

ВЛИЯНИЕ ВНУТРЕННЕЙ ПОЛИТИКИ ГОСУДАРСТВА СЕФЕВИДОВ НА ЗАКОНОДАТЕЛЬСТВО В XVI–XVII ВЕКАХ

Мираферим Сеидов

Резюме. В статье значительное место отводится исследованию вопросов законодательства во внутренней политике государства Сефевидов, существовавшего на территории Азербайджана в XVI–XVII веках, а также рассматриваются вопросы светского и религиозного законодательства. Исследование законодательных аспектов государства Сефевидов проводится на фоне анализа политической картины рассматриваемого периода.

Правовая система Азербайджанского государства Сефевидов основывалась на шариате, источниками которого являлись Священный Коран, сунна, иджма, кияс и фетва. В статье определяются основные направления развития законодательства. Наряду с мусульманским

правом рассматриваются и другие источники права — приказы и фирманы шахов и султанов, не противоречащие нормам ислама.

В статье приводятся примеры законов и фирманов, изданных сефевидскими шахами, исследуются вопросы разграничения светского и религиозного законодательства, а также их взаимосвязь и соотношение. Одновременно обращается внимание на тенденцию к теоретическому обобщению правовых норм в государстве Сефевидов.

Ключевые слова: Мусульманское право, Сефевиды, право, шах Тахмасиб, законодательство, шах Аббас

Giriş

Azərbaycan xalqının dövlət və hüquq tarixinin, dövlət idarəçiliyinin və qanunvericiliyinin öyrənilməsi müstəqillik əldə edilməsindən sonra xüsusi əhəmiyyət kəsb edir. Keçmişin zəngin tarixi irsinin öyrənilməsi müasir gerçəkliyin daha dərindən anlaşılmasının əsasıdır. Müasir dövrün dövlət və hüquq proseslərini başa düşmək üçün onların yaranması, inkişaf mərhələləri, formaları və məzmunu dərindən tədqiq edilməlidir.

Təqdim olunan məqalədə XVI – XVII əsrlərdə Azərbaycan ərazisində mövcud olmuş Səfəvilər dövlətinin daxili siyasətində qanunvericilik məsələlərinin tədqiqinə geniş yer verilir, dünyəvi və dini qanunvericilik məsələləri araşdırılır. Səfəvilər dövlətinin idarəetmə sistemi, qanunvericilik məsələlərinin tədqiqi dövrün siyasi mənzərəsinin analizi fonunda verilir.

Burada mərkəzi hakimiyyət və idarəçilik orqanları, Səfəvilər dövlətinin qeyri-məhdud hakimiyyətə malik başçısı olan, dəqiq təşkil olunmuş idarəetmə sistemi vasitəsilə ölkəni idarə edən şah hakimiyyətinin daxili siyasətinin hüquqi təbiəti təhlil edilmişdir.

XVI – XVII əsrlərdə Azərbaycan Səfəvilər dövlətinin hüquq sistemi şəriətə əsaslanırdı ki, onun da mənbəyi Qurani-Kərim, sünnə, icma, qiyas və fitva idi. Səfəvilər dövlətinin daxili siyasətində qanunvericiliyin əsas inkişaf istiqamətləri müəyyənləşdirilir.

Məqalədə müsəlman hüququ ilə yanaşı, hüququn digər mənbələri – islama zidd olmayan şah və sultanların əmr və fərmanları, yerli adətlərin meydana gəlməsi göstərilir. Səfəvi şahlarının verdiyi qanunlar misal gətirilir, dünyəvi qanunvericiliklə dini qanunvericilik arasında sərhədin müəyyən edilməsinə cəhd göstərilir. Eyni zamanda XVI– XVII əsrlərdə Azərbaycan Səfəvi dövlətində hüquq normalarının nəzəri cəhətdən ümumiləşdirilməsi meyli nəzərə çatdırılır.

Əsas hissə

Müsəlman Şərqinin digər dövlətlərində olduğu kimi, Səfəvilər dövlətinin də əsas qanunu müsəlman hüququ hesab olunurdu. XVI – XVII əsrlərdə Səfəvilər dövlətində müsəlman hüququ ictimai münasibətləri tənzim edən əsas mənbə olmuşdur. İslamın şiə məzhəbinin prinsipləri və qaydaları əsas götürülsə də, sünni məktəblərinin hüquq topluluqlarından da istifadə edilirdi. Səfəvilər dövlətində şiəliyin rəsmi dövlət dini elan edilməsi müsəlman ruhanilərin dövlətdə və onun idarəetmə strukturlarında rolunu xeyli artırmışdı. Səfəvilərin hakimiyyəti dövründə də dövlətin qanunvericilik bazasını əsasən Quran, Sünnə və digər köməkçi mənbələr təşkil edirdi. Lakin şiələr ilk üç xəlifənin adları və əməlləri ilə bağlı hədisləri qəbul etmirdilər.

Beləliklə, islam və şəriət qanunları tərtib olunarkən Quran, Məhəmməd peyğəmbərin öz sağlığında dediyi hədislər, sonralar əldə edilmiş hədislər əsas götürülmüşdür. Qurana əsaslanan bu hədislərdən mülki və cinayət işləri üzrə məhkəmələrdə geniş istifadə edilmişdir. Əslində, Qurani-Kərimdə cinayətlər və həmin cinayətlər müqabilində verilən cəzalar ətraflı şərh edilmiş və sonralar bunlar islam hüququnun bir növ qaynağına çevrilmişlər.

Məlum olduğu kimi, müsəlman hüququnda milli fərqlərin nəzərə alınmaması, pozulmaz ehkam xarakteri daşıması nəticəsində Xilafətdə yaranmış hüquq normaları bütün müsəlman ölkələrində tətbiq edilirdir.

Səfəvilər dövlətində də şiəlik ideologiyasına zidd olmayan sünni hədislərindən istifadə edilirdi. Səfəvilər dövründə şiə fəqihləri hədislərə dair bir çox əsərlər yazmışlar. Əl-Amili Bəhaəddin Məhəmməd «Risalə fi bəyan ərbəin hədisən» (40 hədisin aydınlaşdırılması haqqında traktat) əsərində peyğəmbərin sağlığında toplanmış 40 hədisi şiəlik baxımından şərh etmişdir (2.səh.198). Məhəmməd Rza ibn Əbdülmütəllib Təbrizinin hüquqa dair yazdığı əsərləri - «Ketabe əl işarat fil-fiqh» (Müsəlman hüququ üzrə qeydlər kitabı), «Şərh ol-məfatih» (Həlli müşkül məsələlərin həlli) ilə Azərbaycanda hüquq elminin və qanunvericiliyin inkişafında mühüm rol oynamışdır. Dövrün digər hüquqşünas alimlərindən Mirzə

Məhəmməd ibn Həsən Şirvaninin, Nəcabəddin Rza, Yusif ibn Məhəmməd Qarabağı və başqalarının adlarını çəkmək olar.

Səfəvi şahlarının tədqiqatımızın predmeti olan mühüm səlahiyyətlərindən biri də onların dünyəvi qanunvericilik fəaliyyəti idi. Mənbələrin və elmi ədəbiyyatın araşdırılması göstərir ki, XVI – XVII əsrlər Azərbaycanın ictimai-siyasi və mədəni həyatında islamın şiə məzhəbinin siyasi-hüquqi ideologiyasının və şəriətin tam möhkəmləndiyi və qüvvədə olduğu bir dövrdür. Qeyd edilməlidir ki, hüquq sisteminin bazası rolunu oynayan şəriət normaları cəmiyyətdəki münasibətləri hakim ideologiyanın mövqeyindən tənzimləyirdi. Hökmdarın hakim nüfuzu dünyəvi qanunlarla yanaşı, şəriət normaları vasitəsilə də möhkəmləndirilirdi. Şübhəsiz ki, dünyəvi qanunlar, hökmdar fərmanları, ümumiyyətlə, bütün normativ-hüquqi aktlar şəriət normalarının məzmun və mahiyyətinə uyğun olmalı idi.

Səfəvilər dövlətində hüququn digər mənbələri kimi, şah fərmanları ilə yanaşı, I Şah Təhmasibin «Dəstur-əl-əməl Şah Təhmasib», I Şah Abbasın islahatları, I Şah Hüseynin vergi siyasəti böyük əhəmiyyət kəsb edirdi. Bununla belə, dövlət başçıları tərəfindən verilən fərmanlar, qanunlar, həyata keçirilən islahatlar müsəlman hüququnun əsas prinsipləri ilə ziddiyyət təşkil etməməli idi. Bu səbəbdən hökmdarların qanunvericilik aktları müctəhidlərlə razılaşdırıldıqdan sonra tətbiq edilirdi.

I Şah Təhmasib H. 963-cü (1555–1556) ildə ölkəni iqtisadi böhrandan qurtarmaq ücün «Dəstur-əl-əməl» adlanan 96 maddədən ibarət Qanunnamə tərtib etmişdi. Burada əsasən vergi və mükəlləfiyyətlərin, cərimələrin miqdarı müəyyənləşdirilir, həmcinin mülki və hərbi işlərə aid məsələlərdən bəhs olunur. Təhmasibin qanunlarının bazası rolunda müsəlman hüququ, islam ehkamları çıxış edirdi. I Şah Təhmasibin fəal qanunvericilik fəaliyyəti həmin dövrün bir çox alim və hüquqşünasları tərəfindən yüksək qiymətləndirilmişdir.

Həmin Qanunnamənin mətni daş üzərində həkk olunaraq bir sıra şəhərlərdə,o cümlədən Təbriz şəhərində qoyulmuşdu. 1617-ci ilə qədər qüvvədə olan bu Qanunnamə vergilərin miqdarını müəyyənləşdirməklə, iqtisadi inkişaf üçün zəmin yaratdı (11, s.146-147). Ölkəni idarə edən «Dəstur-əl-əməl» verilənə qədər, Səfəvi dövləti Ağqoyunlu hökmdarı Uzun Həsənin verdiyi Qanunnamə əsasında idarə olunurdu (12, s.315).

Səfəvi paytaxtı Təbrizdən Qəzvinə köçürüləndən sonra Şah Təhmasib yenidən şəriətə zidd hərəkətlərin yasaq edilməsi barədə fərman vermişdi. Hətta Xasse-ye şərifədə içmək üçün hazırlanmış 500 tümən məbləğində şəraba qatılmış tiryək və sair məcun maddələri suya qataraq digər məhsula çevirmişdilər. Həmin fərmanda rəiyyət ilə davranış qaydaları, dörd cinayət növü üzrə müttəhimlərdən alınacaq cərimələrin miqdarı müəyyənləşdirilirdi. Əsası olmayan bəzi vergilərin, o cümlədən bazar, mal-qara, otlaq yerlərdən alınan vergilərin alverçi və sənətkarlardan alınan tamğanın ləğv edilməsi nəzərdə tutulmuşdu. Şah Təhmasibin verdiyi fərmanda deyilirdi: “Dövlət məmurları qanun və dəstürüləməlin əksinə olaraq bir dinar belə rəiyyətdən alsalar, onlardan 50 tümən cərimə tələb olunsun” (7, vər. 210).

Həmin fərmana əsasən, şərab içmək, musiqi çalmaq, nərd və şahmat oynamaq, qumarbazlıq, xoruzbazlıq yasaq edilmişdi (7, vər. 242).

Məsələn, Şah Təhmasib iki dəfə – 1526 və 1556-cı illərdə musiqi çalınmasını qadağan edən fərmanlar vermişdir. 1556-cı ildə verilmiş fərmanda deyilirdi: ”Müğənni şərə xilaf mahnı oxusa, cəzalanmalıdır. Ney şəri mahnılarla həmahəng olmasa, nəfəs çıxarmağa qoymasınlar”. Həmin fərmanlardan aydın olur ki, musiqi yalnız dini mərasimlər zamanı çalına bilərdi (1, s.331).

Qazi Əhməd Qummi yazır ki, Şah Təhmasib tərəfindən verilmiş bütün «dəstüriəməllər» – hökm və fərmanlar bütünlüklə Məhəmməd peyğəmbərin şəriəti və həzrəti Əli nəslinə mənsub ümmətin qanunu kimi qiymətləndirilirdi. Qummi sözünə davam edərək yazır: “Şah Təhmasib dövründə heç bir ürfi məsələ (mülki məsələ) şəriət fitvası olmadan həll olunmurdu” (9, s.31-32). Deməli, dünyəvi-hüquqi məsələlər də şəriət qanunları əsasında həll edilirdi.

Əlbəttə, həmin fərmanın icrası əsasən ruhani idarələrinə, o cümlədən şəriət məhkəmələrinə tapşırılırdı. Belə bir faktı göstərmək kifayətdir ki, 1555-ci ildə Şah Təhmasib qərara gəlmişdi ki, ölkəni dini cəhətdən qadağan edilmiş işlərdən təmizləsin. Lakin ona xəbər çatır ki, Məşhəddə hakimiyyətdə olan Qızılbaşlar onun şəriətə zidd işlərdən uzaqlaşmaq barədə verdiyi fərmanın icrasında səhlənkarlıq edirlər. Buna görə də şahzadə Soltan İbrahim Mirzəni Məşhədə hakim təyin edir. Yeni hakimin təyin edilməsi barədə fərmanda deyilir ki, “şəriət ehkamlarının icrasını və şəriətə xilaf işlərin aradan götürülməsini Şeyxülislam Əsədullah İsfahaniyə tapşırmışıq. Şahzadə, ona şəri rəyi və şəriət qaydaları əsasında əməl etsin” (10, s.104).

Səfəvilərın hakimiyyəti illərində bütün vergi məsələləri Səfəvi şahlarının fərmanları əsasında öz həllini tapırdı. I Şah Təhmasib də dövlətin vergi siyasətini həyata kecirmək ücün fərmanlar verirdi. Məsələn, I Şah Təhmasib karvan yollarından, tacirlərdən, şəhərlərdə sənətkarlardan, bazarda mal satan kəndlilərdən, zərbxanalardan alınan “tamğa” vergisini 1565-ci il martın 15-də verdiyi fərmanla ləğv etmişdir. Tamğanın Şah Təhmasib tərəfindən ləğv edilməsi dövri mənbələrdə də göstərilmişdir. Bu barədə Həsən bəy Rumlu yazır ki, “hicri 972(1565)-ci ildə nəşr edilmiş fərmana görə, Səfəvi dövləti sərhədlərində tamğa ləğv edildi. Halbuki dövlət bu verğilərdən ildə 30000 tümən gəlir götürürdü” (3, s.428).

Tamğanın ləğvi barədə başqa bir məlumatı doktor Əbdül Hüseyin Nəvai vermişdir. O, I Şah Təhmasibin dövründə çap olunmuş sənədləri götürərək 1971-ci ildə cap etdirmişdir. Beləliklə, Təbriz məscidlərinin litoqraf (epiqrafik) yazısında hicri 972-ci il şaban ayının 12-də (1565-ci il martın 15-də) “tamğa”nin ləğvi ilə əlaqədar nəşr edilmiş fərmanın mətni bizə catmışdir (13, s.22-23).

Şah Təhmasib belə bir fərmanı ölkənin iqtisadi inkişafı üçün vermişdir. O, 1555-ci il Amasiya sülhündən sonra ölkənin dağılmış təsərrüfatını bərpa etməyə cəhd edir, ticarət və sənətkarlığın inkişafına diqqətı artırırdı. Lakin bu sahələrdən alınan “tamğa” vergisi buna mane olurdu.Bu səbəbdən Şah Təhmasibin fərmanı ilə “tamğa” vergisi ləğv edilmişdir.

Şah Təhmasib Səfəvi dövləti ərazisində icrası zəruri olan fərmanlardan başqa, bəzən ayrı-ayrı şəhərlərdə baş verən hadisələri, yerli şəraiti nəzərə almaqla fərmanlar verirdi.

Məsələn, 1571-73-cü illər Təbriz qiyamından sonra Təbriz şəhəri üçün ayrıca verdiyi fərmanda şəhər sənətkar və alverçilərini bütün divan vergilərindən azad etdi. Fərmana əsasən, Təbriz şəhərinə ehdas qazisi təyin edildi ki, “şəhər dairələri onun hüzurunda mülki və cinayət işlərinə baxıb, şəriət üsulu ilə sorğu-sual aparıb, cinayətkarlar barədə şəri hökm çıxarıb icra etsinlər və heç kəsdən cərimə almasınlar” (4, s.308).

Deməli, qanunvericilikdə həm ölkə miqyasında, həm də ayrı-ayrı şəhər və vilayətlərin şəraiti nəzərə alınırdı. Digər tərəfdən, divan vergiləri də Məhəmməd peyğəmbərin şəriət qanunları əsasında alınırdı (3, s.246). Yəni, istər divan vergiləri, istərsə cinayətkarlardan alınan cərimələr və ya onların cəzalandırılması şəriət qanunları əsasında müəyyən edilir və fərmanlarda da öz əksini tapırdı. Hətta sərxoşluq və oğurluğa qarşı şahlar tərəfindən ayrıca fərmanlar verilir və bütün ölkədə qanun kimi icra edilirdi. Məsələn, Şah Təhmasib özü şərab içməyi tövbə etdi və 1533-cü ildə onun fərmanı ilə bütün meyxanalar bağlandı (3, s.246). 1555-ci ildə verdiyi fərmanda yenə sərxoşluğa qarşı mübarizə məsələsi irəli sürülmüşdü.

Hər iki fərmanla deyilirdi ki, “heç kəs şəriətə zidd işlərə əl atmasın”. Yəni, Şah Təhmasibin 1533-cü ildə verdiyi tövbə fərmanı tək özünə aid deyil, bütün məmaliki-məhpucəyə (qorunan ölkələr) aid edilirdi. Belə ki, həmin fərman verilən ildə Qorçuların vəziri Xacə Şahqulu şərab içdiyi üçün şahın fərmanı ilə öldürlmüşdü.

Səfəvilər dövlətində dünyəvi qanunvericiliyin əsasında şah fərmanları dururdu. I Şah Abbas da 1597-ci ilin iyul ayında tiryəkin qadağan edilməsi haqqında fərman vermişdi. Həmin fərman əsasında bütün ölkədə tiryək çəkmək qadağan edilirdi.I Şah Abbas deyirdi: «Mən başsız və tiryəkli adamı saxlamıram». Hətta həmin fərmandan sonra I Şah Abbasın baş münəccimi Cəlaləddin Məhəmməd Yəzdi 19 il tiryək çəkməsinə baxmayaraq, onu tərgitmişdi (4, s.157).

Hadisələrin gedişindən məlum olur ki, fərmanlar xeyli müddətdən sonra öz qanuni əhəmiyyətini itirmişdi. Məhz buna görə də Səfəvi şahı Soltan Hüseyn (1669-1722) 1696-cı ildə şahlıq taxtı səltənətində oturan kimi sərxoşluğa dair fərman vermişdi. Fərmanda deyilirdi: «Hamı şərab içməkdən uzaqlaşsın. Harada şərab kuzəsi və ya şərab qoxusu görülüb, hiss edilsə, kuzəni sındırıb, şərab içəni tutsunlar». Qeyd etmək lazımdır ki, adətən fahişəxanalardan, qumarxanalardan, həşiş, tiryək satanlardan dövlət tərəfindən vergi alınır və pul haram olduğu üçün onu şamların alınmasına və yandırılmasına sərf edirdilər. Şah Soltan Hüseynin fərmanı ilə həmin vergi aradan götürüldü və şəriətə zidd olan bütün fahişəxanalar, qumarxanalar, həşiş və tiryək satan yerlər bağlandı. Şah Soltan Hüseyn də Şah Təhmasib kimi şahmat, qumar və nərd oyununu, yolkəsənliyi, məharətlə əldə şeylər oynadılmasını, gözbağlayıcı oyunları, üzük oyununu, pul ilə qaraxal oyununu, darıdan pivə düzəltməyi, həşiş, tiryək satmağı və çəkməyi, üzüm suyu çəkib satmağı, tənbur, çahartar, dəf, kamança, tütək çalmağı, müğənniliyi, rəqsi yasaq edirdi. Bundan əlavə, quşbazlıq (göyərçin uçurtmaq), canavar qaçırtmaq, döyüşdürmək məqsədilə öküz, qoç, xoruz və sair heyvanları saxlamaq yasaq edilirdi. Meydanlarda mərəkə çıxarmaq da qadağan edilmişdi. Fərmanda deyilirdi: «Həmin pis işləri görənlər məhəllələrin dini şəxsiyyətləri, kələntərləri,

ağsaqqallar hüzurunda tövbə etməlidirlər. Həmin məzkurlar (yəni fərmanda yasaq edilmiş işləri görənlər) cəzalandırılmalıdır. Şah Soltan Hüseynin salnaməçisi Məhəmməd İbrahim ibn Zeynalabdin ən-Nəsiri Tusi Ordubadi yazır ki, İsfahanda həmin fərmanın icrası üzərində nəzarəti divanbəyi Musa bəyə və İsfahan daruqəsinə tapşırmşdı. Onlar bir müddət işlərini bu məsələyə sərf edib, küçələrdə, meydanlarda oyun çıxaranları, onları təqlid edənləri, güləşənləri, hoqqabazları, qoç döyüşdürənləri, tiryək və şərab satanları, quşbazları tutub cəzalandırırlar, fahişələri və nağıl danışanları, musiqiçiləri Zəmanın müctəhidi Məhəmməd Bağırın yanına göndərdilər(8, vər. 36-416).

Qeyd etmək lazımdır ki, Şah Soltan Hüseyn həmin fərmanın layihəsini hazırlayarkən yüksək rütbəli dini şəxsləri, sədrləri, islam qazilərini məclisə toplayır, Mirzə Əlixan həmin sənədi qələmə alır, xəttat Məhəmməd Rza bəy onu gözəl xətlə köçürür, şah sənədə möhür vurub, üləmanın yanına göndərir. Üləmalardan hər biri sənədi təsdiq edib, şahın möhürünün aşağısında möhürlərini vururlar (8, vər. 43a).Fərmanın aşağısında «Əbül müzəffər Şah Soltan Hüseyn əl-Səfəvi əl-Musəvi əl-Hüseyni Badirxan Ələllahü-Təala» sözləri yazılmışdır (9, s.32).

Göründüyü kimi, Səfəvi şahlarının verdikləri fərmanlar bir növ qanunnamə hesab olunurdu. Həmin qanunnamədə əhkmai ilahi, Quran, Məhəmməd peyğəmbərin hədisləri, fiqh qanunları əsas götürülməklə yanaşı, dövrün tələbinə uyğun yeni yaranmış mülki və cinayət işləri, növlərinə uyğun olan yerli adət-ənənələr də nəzərə alınmışdı. Lakin fərman yalnız yüksək rütbəli din xadimləri tərəfindən şəriətə müvafiq surətdə öz möhürləri ilə təsdiq edildikdən sonra icra edilirdi. Cinayət məsələləri divanbəyi, daruqəyə aid şəriət işləri isə yüksək rütbəli din xadimlərinə həvalə edilirdi. Həmin fərmanın icrası həm də qaziülqüzzat ibn Hüseyn Cəmaləddin Məhəmməd əl-Xansəriyə Qumiyə və Şeyx Cəfər qaziyə də tapşırılmışdı (8, vər.46b).

I Şah Abbas da istər şəhərlərdə, kəndlərdə, istərsə də yollarda oğurluqların, soyğunçuluğun qarşısını almaq, oğruları tərbiyə etmək və ya cəzalandırmaq üçün fərmanlar və bu sahədə görüləcək tədbirlər barədə fərmanlar vermişdi.

Fərmanda deyilirdi ki, “karvan yollarına gözətçilər qoyulsun. Həmin gözətçilər əyalətlərin hakimləri tərəfindən təyin edilsin. Yollarda, şəhərlərdə tacirlərin, gəlib-gedənlərin malları oğurlandıqda, oğrunu tapıb, oğurlanmış mal sahibinə qaytarılmalıdır. Oğru və oğurlanmış mallar 40 gün müddətində tapılmadıqda hadisənin baş verdiyi əyalətin hakimi və ya yol gözətçisi oğurlanmış malın dəyərini mal sahibinə ödəməlidir”. Səfəvi imperiyasında həmin fərman ciddi icra olunurdu. Oğru dəstə başçılarının əksəriyyəti tutulub cəzalandırılırdı.

I Şah Abbas ölkənin ədalətlə idarə olunması və ədalətli hakimin əsas əlamətini cinayətkarı cəzalandırmaqda görürdü. Onun bu üsul və qaydası hakimiyyətinin ilk illərində xeyli faydalı oldu. Səfəvi imperiyasında zülm və özbaşınalıq aradan getdi. İsgəndər bəy Münşi yazır ki, “Şah Abbasın cəzası qorxusundan və ədaləti nəticəsində quzu ilə canavar bir-biri ilə birləşmişdi, müxalif və müvafiq bir xalça üzərində yatırdılar, bir-birinə zərər verməyəcəklərindən arxayın idilər. Şah kiməsə bir iş tapşırdıqda həmin şəxs onu dərhal yerinə yetirib, təxirə salmağa cürət etmirdi. Ataya oğlunu öldürmək əmrini versəydi, ata təcili surətdə o əmri yerinə yetirirdi. Əgər atalıq qayğısı və övlada məhəbbət baxımından ata şahın əmrini yerinə yetirməsəydi, əksinə, oğluna əmr edirdi ki, atasını öldürsün. Əgər oğul da şahın əmrini yerinə yetirməkdən imtina etsəydi, üçüncü adama əmr edilirdi ki, onların hər ikisini, yəni həm atanı, həm də onun övladını qətlə yetirsin. Ona görə də heç kəs cürət edib, onun fərmanından çıxa bilməzdi” (5, s. 1105).

Şah Abbasın fərmanı əsasında «el və tayfanın dini qeyrəti və namusunu qorumaq» naminə müharibə vaxtı orduya çağırılmş şəxs dərhal cəbhədə hazır olmalı idi. Həmin şəxs imkanı olmadığından orduya gəlmədikdə, onun yerini hökumətə xəbər vermiş adam hökm vasitəsilə həmin şəxsi öldürə bilərdi. Öldürülən şəxsin mal-əmlakı həmin xəbər verən şəxsə çatırdı. Əgər imkanı olub, döyüş meydanına getməyən şəxsi bütöv bir el və ya tayfa bütövlükdə müdafiə edirdisə, onda həmin el və tayfa tamamilə cəzalandırılırdı. Bu fərmandan sonra heç bir kəs döyüş meydanına getməkdən imtina edə bilməzdi” (5, s. 1105).

I Şah Abbasın fərmanı ilə dünyəvi feodallar ən ağır cəza olan ölüm cəzasından azad edilmişdilər. Fərmanda qeyd edilən qaydaya görə, hakimiyyətə və hökmdara münasibətdə xəyanət baş tutmamışdırsa, təqsirkar şəxslərə ölüm cəzası tətbiq edilə bilməzdi.Onlardan yalnız pul cəriməsi tutulmalı idi. I Şah Abbasın “Hökmdarın əleyhdarlarının tamamilə məhv edilməsi haqqında” fərmanı ilə itaət etməyən əmirlərin ciddi cəzalandırılması nəzərdə tutulurdu (6, s. 245).

Nəticə

Yuxarıda qeyd etdiklərimizdən aydın olur ki, şəriət qanunvericiliyi həm şəriət, həm də dünyəvi cinayətkarlığa qarşı yönəlmişdi. Bu məsələlər üzrə hətta şahların verdikləri fərmanlar, hökmlər və sərəncamlar bilavasitə Quran ehkamlarına, hədislərə, fiqh qanunlarına əsaslanır. Şəriət qayda-qanunlarına əsaslanan Səfəvi hökmdarları dövrün tələblərini, yerli şəraiti də nəzərə alırdılar. Həmin fərmanlar dövlət qanunu kimi bütün Səfəvi imperiyasında sözsüz icra olunur və onların icrası üzərində möhkəm qanunnamələr həm şəriət, həm də ürfi qanunvericilik idi, yəni həm dini, həm dünyəvi qanunları özündə əks etdirirdi. Ali məhkəmə sayılan divanbəyi məhkəmələrində də həmin fərmanlar Quran ehkamları və hədislər kimi əsas götürülürdü. Dövlətin idarə olunmasında dinə və dünyəvi qaydalara xilaf iş görənlərə qarşı məhkəmə qazilərinin öz şəxsi baxışları deyil, məhz həmin qanunlar əsas götürülürdü. Deməli, ölkənin idarə olunması üçün vahid qanunvericilik sistemi mövcud idi. Hər bir cinayət işinə məxsus cəza tədbirləri həyata keçirilirdi.

Beləliklə mənbələrə istinadən apardığımız araşdırmalardan belə bir nəticəyə gəlmək olar ki, Səfəvilər dövründə istər Mərkəzi hakimiyyətin idarəçiliyində , istərsə də hüquq və qanunvericilik fəaliyyətində baş vermiş dəyişikliklər, Azərbaycanda güclü mərkəzləşdirilmiş dövlətin yaranmasına şərait yaratmış oldu. Bunlar dövlətin möhkəmlənib güclənməsində mühüm rol oynamışdır.

XVI əsrdə əsası qoyulan Azərbaycan Səfəvilər dövləti Azərbaycanın dövlətçilik tarixində önəmli yerlərdən birini tutmuş, daxili siyasətində Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırmış, icra, qanunverici və məhkəmə hakimiyyətləri sistemini daha da təkmilləşdirmişdir.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan tarixi. 3-cü cild. Bakı, Elm 1999.
2. Əkbərov R, Səlimov S. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, “Qanun”, 2009.
3. Həsən bəy Rumlu. Əhsən-ət Təvarix.Tehran nəşri, 1931.
4. İsgəndər Münşi. Tarix-i aləm-i aray-i, I cild.
5. İsgəndər Münşi. Tarix-i aləm-i aray-i, III cild.
6. İsmayılov X. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, “Nurlan”, 2006.
7. Qazi Əhməd Qummi. Xülasət ət- tavarix, Berlin nüsxəsi, I cild.
8. Məhəməd İbrahim. Dəstur-i Şəhriyaran. Britaniya muzeyi nüsxəsi, əlyazma.
9. Nazim Cəfərli. Səfəvilər dövləti: Məhkəmə orqanları və hərbi təşkilatın quruluşu . Bakı, 2000.
10. Röhr Börn. Nezame əyaləte dər dövre-ye Səfəviyyə.
11. S.M. Onullahi.13-17-ci əsrlərdə Təbriz şəhərinin tarixi. “Elm” nəşriyyatı. Bakı, 1982.
12. M.N.Seyidov. IX-XV əsrlərdə Azərbaycanda dövlət idarəçiliyinin və qanunvericiliyinin inkişafı. Bakı, Təknur, 2013.
13. Şah Təhmasib Səfəvi. Məclisi-ye əsnad və mokatsbat-e tarixi həmrah ba yaddaştaha-ye təfsili, be ehtemame doktor Əbdülhüseyn N.Nəvai. Tehran, 1350 (1971).

Rəyçi: f.f.d., dos. Həbib Hüseynov